*Məqalə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının otuzuncu ildönümünə həsr olunmuş, “Azərbaycan iqtisadiyyatı müstəqillik illərində” mövzusunda 15 oktyabrda keçiriləcək Respublika elmi konfransının məqalə müsabiqəsinə təqdim olunmaq üçün hazırlanıb.*

# Müstəqillik tariximizin səhifələri

18 oktyabr Azərbaycan tarixi üçün xüsusi günlərdən biridir. Məhz bu gün Azərbaycan xalqı öz iradəsinin, qətiyyətinin necə sarsılmaz olduğunu dünyaya göstərərək müstəqilliyini bərpa edib. Artıq bu əlamətdar hadisədən 30 il ötür. Müstəqillik yolunda xalqımız çox çətin maneələrdən keçib. Bir əsrdə iki dəfə müstəqillik qazanmaq hər xalqa nəsib olmayan nemətdir. Belə ki, ilk dəfə 1918-ci il may ayının 28-də Azərbaycan çox çətin bir tarixi dövrdə öz istiqlaliyyətini elan etdi. Bu müstəqillik heç də asan əldə olunmamışdı, çar Rusiyasının əsarətindən qurtularaq azadlıq əldə etmiş, mütərəqqi dəyərlərə əsaslanan şərq aləmində ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb siyasi şəraitdə yenicə dövlətçilik ənənələrini bərpa edərkən dövlətimizin üzərini yenidən qara buludlar aldı.

Bu ərəfələrdə Rusiyada çar mütləqiyyətçi rejiminin devrilməsindən istifadə edən kommunistlər inqilab edərək hakimiyyəti öz əllərinə keçirirlər. 1917 – ci il Bolşevik inqilabı qanlı bir hadisə idi. Bu inqilab özü ilə birlikdə qonşu və müstəqil xalqlara təcavüz, kütləvi represiyyalar, terror dalğası gətirdi və beləcə Sovet qoşunlarının 1920 – ci il aprel ayında Bakıya daxil olması ilə 23 ay müstəqil yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinə zorla son qoyuldu və Azərbaycanda bolşeviklərin hakimiyyəti quruldu. Bu işğal 71 il davam elədi. Sovet hökuməti tərəfindən həm Azərbaycanın ərazi bütövlüyünə müdaxilə olundu, həm təbii sərvətlərimiz istismar olundu həm də milli və mənəvi dəyərlərimizin unutdurulması istiqamətində işlər aparıldı. Lakin Azərbaycan xalqı öz şücaət və əzmi nəticəsində bu dəyərləri qoruyub saxladı və müstəqil yaşamaq istəyi bu xalqın qəlbindən çıxmadı. 20 – ci əsrin sonlarına yaxın Sovet hakimiyyəti ideoloji, iqtisadi böhran yaşayırdı. SSRİ – nin əksər bölgələrində xalqların azadlıq hərəkatı başlanmışdı. Amansız və qanlı rejim bu hərəkata cavab olaraq hər zaman olduğu kimi xalqların azadlıq hissini güc yolu ilə boğmağa çalışdı. Müxtəlif regionlarda o cümlədən Azərbaycandada qanlı qırğınlar törədərək öz sonunun yaxınlaşdığını sübut etdi, necə deyərlər “zalımın sonu yaxınlaşanda zülmü çoxalar”. Bütün bunlardan sonra 1991-ci ilin avqust ayında SSRİ- nin ləğv edilməsi haqqında qərar qəbul edildi və SSRİ dünyanın siyasi xəritəsindən

silindi. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan xalqının müstəqillik mübarizəsi daha da geniş vüsat aldı. "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə ilə bu mübarizə öz qələbəsi ilə yekunlaşdı və bu bəyannamə əsasında Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 2-ci maddəsində təsbit edildi ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991- ci il Azərbaycan müstəqilliyi haqqında Konstitusiya aktının qəbulundan sonra şərqin ilk demokratik dövləti olmuş Azərbaycan tarixində yenidən müstəqillik dövrü başladı. Azərbaycan öz müstəqilliyinin bərpasını bütün dünyaya elan etdi.

Azərbaycan xalqı 20 - ci əsrdə iki dəfə müstəqillik əldə etməklə adını tarixin şanlı səhifəsinə yazdı. Təbii ki, bu müstəqilliyə gedən yol 20 yanvar kimi faciələrdən keçsə də heç bir qüvvə xalqımızın müstəqillik arzusunu boğa bilmədi. Müstəqilliyimizin ilk illəri dövlətimiz üçün heç də asan olmamışdı, buna səbəb Sovet hakimiyyətindən bizə bir çox problemlərin miras qalması idi. Bunlardan ən başlıcası mənfur qonşumuz olan, tarixi Azərbaycan torpaqlarında qurulan Ermənistan dövlətinin ölkəmizə qarşı olan təcavüzkar və aqressiv siyasəti idi. SSRİ vaxtında Zəngəzur kimi Azərbaycanın tarixi və qanuni torpaqlarının Ermənistana verilməsi, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda münaqişə ocağının yaradılması müstəqillik dövründə başqa formada davam elədi. Bununla yanaşı bir yandan keçmiş Sovet imperiyasını qoruyub saxlamağa çalışan qüvvələrin təzyiqi və ölkə daxilində sabitliyin olmaması,siyasi və iqtisadi böhran dövlət müstəqilliyimiz üçün ciddi təhlükə idi. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır, erməni təcavüzü gündən-günə güclənirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Yeni qurulmuş respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi və Azərbaycan vətəndaş müharibəsinin astanasında idi. Bütün bunlar səbəb oldu ki, ölkəmizin 20% torpaqları erməni hərbi birləşmələri tərəfindən işğal olundu. Bu cür siyasi özbaşınalıq, müharibə və anarxiya zamanında xalq Naxçıvandan Heydər Əliyevi Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin dəvətini qəbul edərək, iyun ayının 9-da Bakıya gəldi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə vəziyyət dəyişdi. Ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi

əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdı. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçən tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması prosesi sürətlə davam etdirildi , Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühim addımlar atıldı , digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələrdən istifadə olundu və bunun.. Bunların nəticəsi olaraq da 1994-cü ildə atəşkəs əldə olundu. Atəşkəsə nail olmaq və siyasi, iqtisadi münasibətlərin bərpası Azərbaycanın müstəqilliyinin qarantına çevrildi.

Azərbaycan daxilində yaranmış nisbətən siyasi sabitlikdən və beynəlxalq sferada ölkəmizə qarşı artan etimad və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf planını təşkil edən neft strategiyasının həyata keçirilməsinin təzahürü idi. Müxtəlif dünya güclərinin diqqətinin Azərbaycana yönəldilməsi həm iqtisadi inkşafa, ölkəmizə irihəcmli investitsiyaların cəlb edilməsində həmdə müstəqilliyimizin qorunub saxlanılmasında mühüm rol oynadı.

Bundan sonra, Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə, bazar iqtisadiyyatının ölkəmizdə qurulmasına başlandı. Ümumilli lider Heydər Əliyevdən sonra bu siyasət Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən də davam etdirilir. Ölkəmizin müstəqilliyi dövründə müxtəlif sahələrdə bir çox uğurlar əldə etmişdir. Bu illərdə ölkəmiz Avropa Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunlar,futbol üzrə Avropa çempionatı kimi bir çox nüfuzlu mədəni və idman tədbirlərinə ev sahibliyi etmişdir. Siyasi sferada isə Azərbaycan öz nüfuzunu günü gündən artırmaqdadır. Buna misal olaraq Azərbaycanın xarici siyasətində qonşu dövlətlər ilə münasibətlərini, NATO, BMT, Aİ və digər nüfuzlu beynəlxalq təşkilatlar ilə qurduğu uğurlu münasibəti, 2019-cu ildən bəri qoşulmama hərakatına Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrlik etməsini və s. demək olar. Azərbaycan bu gün regionda söz sahibi olan və bir çox strateji əhəmiyyətli iqtisadi imkanlara sahib olan ölkə kimi tanınır. İqtisadi sahədə Dünya Bankının statistikalarına əsasən Azərbaycanın Ümumi Daxili məhsulu müstəqillik əldə edəndən bəri dəfələrlə artmışdır. Azərbaycan neftinin Xəzər dənizindən dünya bazarlarına çıxarılması üçün Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərləri tikilib.Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il oktyabrın 29-da imzaladığı Sərəncam ilə "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində

Azərbaycanın mənafeyini qorumaq və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyası yaradılıb.2014-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin iyirmi illiyində Səngəçalda Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçılarının, nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi” layihəsinin təməlqoyma mərasimi keçirilib. 2013-cü ildə “Şahdəniz” konsorsiumu TANAP qaz kəməri ilə daşınacaq Azərbaycan qazının Avropa bazarına çatdırılması üçün Türkiyə sərhədini İtaliyanın cənubuna birləşdirən TAP (Trans Adriatic Pipeline) layihəsini seçib. Bu layihələr “Şahdəniz” yatağını İtaliyanın cənubuna birləşdirməklə “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşmasına imkan verir. 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizinin önəmli hissəsi olan TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. “Cənub Qaz Dəhlizi” layihəsinin əsas elementlərindən biri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi başa çatdıqdan sonra, 2018-ci il iyunun 30-dan “Şahdəniz-2” çərçivəsində Türkiyəyə kommersiya təyinatlı qaz həcmlərinin nəqlinə başlanılıb. Azərbaycan ötən müddət ərzində təkcə təchizatçı deyil, həm də etibarlı tranzit ölkəyə çevrilib. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Həmçinin Rusiya şirkətləri bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan nefti Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql etməyə üstünlük verir. Xəzərdəki ən böyük donanma da Azərbaycana məxsusdur .Azərbaycanın beynəlxalq bazarlarda iştirakının genişləndirilməsi ölkənin qüdrətini daha da artırır. Əlavə olaraq İlham Əliyev ixracın şaxələndirilməsini milli iqtisadiyyat üçün gələcəkdə əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edib.

Bu dövr ərzində İqtisadi, mədəni və sosial sahələrlə yanaşı hərbi sənayedə daim inkişaf edirdi çünki Qarabağ və onun ətrafında olan olan 7 rayon hələdə Ermənistan dövlətinin işğalı altında idi. Azərbaycan dövləti və xalqının ən əsas bir arzusu var idi ki, bu torpaqların yenidən öz sahiblərinə qayıtmasına və bu tarixi işğal ləkəsinin alnımızdan silinməsinə nail olmaq. Azərbaycan bir bütün olaraq dövləti və xalqı ilə birlikdə bunu unutmamışdı, unuda bilməzdidə. Hər zaman bayramlarda , dualarda arzumuz bu torpaqlara yenidən qayıtmaq idi. Bəzi qüvvələr bunun əksinə təbliğat aparmağa, xalqımızı və dövlətimizi bu işğalla barışmağa səsləsədə bu bir an belə baş verməmişdir. Sadəcə Azərbaycan dövləti bunun üçün ən uyğun zamanı, Azərbaycan xalqı isə Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyirdi.

1994 – cü ildə atəşkəs elan olunmasına baxmayaraq Ermənistan tərəfi daim atəşkəs rejimini pozur və bəzən müxtəlif təxribatlara əl atırdı. Azərbaycanın günü-gündən güclənən ordusu düşmənə hər zaman layiqli cavab verirdi. Bu cavablardan ən ağırı 2016 – cı ildə aprel döyüşləri zamanı olmuşdur. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi. Lakin bu hələ sadəcə böyük zəfərin başlanğıcı idi. 2020 – ci il iyul ayında Tovuz istiqamətində gedən döyüşlərdə müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq generalın döyüş bölgəsində şəhid olunması Azərbaycan xalqının 30 ilə yaxın çəkdiyi həsrətin sonunun yaxınlaşmasının müjdəsi idi. General Polkovnik Polad Həşimov müasir dövrümüzün fədakarlıq simvoluna çevrildi və böyük İslam alimi Mürtəza Mütəhhərinin dediyi kimi "Sanki generalın qanı yerə yox, Azərbaycan xalqının damarlarına axdı" və xalqın mənəvi cəhətdən müharibəyə hazırlanmasında mühüm rol oynadı. Bu hadisədən sonra minlərlə insan küçələrə çıxaraq Ali Baş Komandanın döyüş əmrini gözlədiklərini bir daha elan elədi və könüllü olaraq döyüşmək üçün hərbi komissarlıqlara müraciət etdilər. Elə Azərbaycan dövləti də 30 ilə yaxın idi ki tarixi torpaqlarının geri qaytarılması üçün ən uyğun geosiyasi məqamı gözləyirdi və bunun üçün siyasi və diplomatik sferada böyük işlər görülürdü və o an gəldi yetişdi. 2020 – ci il sentyabr ayının 27 – si Azərbaycan Ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Bu tariximizin ən kritik dönüş nöqtələrindən biri idi. Tarixin kəskin sınaqlarından keçən Azərbaycan xalqı misli görünməmiş şücaət göstərdi. Polad iradəli, mübariz əsgərlərimiz 44 gün içində öz qanları, canları bahasınada olsa da işğal altında olan torpaları azad etdilər. Xalq, dövlət və ordu hər kəs bir yumruq kimi birləşərək bu qələbəyə nail oldu. Beləliklə, döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu. 44 günlük müharibə 10 noyabrda imzalanan bəyanatla başa çatdı və 8 noyabr Şuşa şəhərinin azad olunduğu gün

Qələbə Günü kimi müstəqil Azərbaycan tarixinin ən parlaq səhifəsinə çevrildi. Şuşamızın işğaldan azad edilməsi tam qələbəmizi müjdələyən zəfər idi.

44 – günlük müharibədə Şuşa əməliyyatı xüsusi əhəmiyyət kəsb etmişdi. Şuşamızı işğaldan azad edən cəngavər ordumuzun şücaəti xüsusi ilə peşəkar hərbçilərin araşdırma mövzusu olmaqdadır. Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir." Bu böyük tarixi qələbə Azərbaycan xalqının əzəli və tarixi, dədə-baba yurdlarının təxminən 30 ildən sonra azad edilməsini gerçəkləşdirdi. Bu tarixi qələbə 1 milyondan çox Azərbaycan vətəndaşının öz el-obasından ayrı düşməsinə, uzunillik vətən həsrətinə son qoydu. Döyüş meydanlarında böyük şücaət göstərən igid əsgər və zabitlərimiz Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə orden və medallara təltif edildilər. Xalqımızın müzəffər ordumuza inamı və dəstəyi, həmçinin ölkəmizdə yaşanan milli və siyasi həmrəylik yaşadığımız qələbə sevincinin ideoloji əsasını təşkil etdi. Sözsüz ki, tarixi qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək, tarixdə əbədi qalacaq və heç vaxt unudulmayacaqdır. Vətən naminə canlarından keçən şəhidlərimizin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

Müharibə bitəndən dərhal sonra böyük qayıdış prosesinə start verildi. Hazırda Qarabağda quruculuq tədbirləri həyata keçirilir, infrastruktur layihələri reallaşdırılır.Azad olunmuş ərazilərə Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin səfirliklərinin, rəsmi nümayəndələrinin müntəzəm səfərləri təşkil olunur və bununlada erməni vəhşiliyi bir daha bütün dünyaya göstərilir.Bu ərazilərə investitsiyaların cəlb edilməsi və erməni işğalçıları tərəfindən viran olmuş şəhərlərin və kəndlərin bərpası, vətəndaşlarımızın yenidən bu torpaqlara qayıda bilməsi üçün inkişaf strategiyası hazırlanır. Təbii ki, bunun üçün ilk növbədə bu ərazilərin minalardan təmizlənməsi və təhlükəsiz vəziyyətin yaranması zəruridir. Bu istiqamətdə dövlətimiz tərəfindən mühüm işlər görülməkdədir. Əlavə olaraq, 10 noyabrda imzalanan üç tərəfli bəyanata əsasən Azərbaycanın ən böyük tarixi nəaliyyətlərindən biri də tarixi Azərbaycan torpağı olan

Zəngəzurdan keçən və Azərbaycanın qərbini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən dəhlizin açılmasıdır. Bu dəhlizin açılması vasitəsi ilə bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycandan hər zaman və ikinci Qarabağ müharibəsindədə xüsusilə Azərbaycana siyasi və mənəvi dəstək verən qardaş Türkiyə cümhuriyyətinə birbaşa quru yol mümkün olacaq. Bütün bunlar Azərbaycanın 30 illik müstəqillik dövründə yaşadığı ən parlaq günlərdir və biz inanırıq ki, daha gözəl gələcək bizi gözləyir. Bütün bu nailiyyətlər və böyük zəfərimiz onu göstərir ki, ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir".

**Vüsal Əsədi,**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),**
**İqtisadiyyat fakültəsi, qrup 844, tələbə.**